sənədlər şəxsi işlərə əlavə edilmiş və təhsil fəaliyyətində həmin keyfiyyət və xüsusiyyətlər nəzərə alınır.

Yeni təlim metodlarının tətbiqi vəziyyətini ilk növbədə qabaqcıl və zəngin təcrübəsi, səmərəli pedaqoji fəaliyyət ənənəsi olan məktəblərdə öyrənir, nəticələrini ümumiləşdirir, rayon təhsil şöbəsinin müzakirəsinə çıxarırıq. Qəbul edilmiş qərar innovatik metodların tətbiq texnologiyalarına həsr olunmuş tövsiyə ilə birlikdə bütün məktəblərə göndərilir.

Rayon Təhsil Şurasının iclaslarında üstün olaraq ümumi problemlərə aid məsələlər müzakirə edilir, konkret həllini tapır, adekvat qərarlarla aidiyyəti orqanlara, idarəçilərə, icraçılara konkret tapşırıq olaraq həvalə olunur.

Rayon Təhsil Şöbəsinin Şurasında üstünlük ümumtəhsil sistemi müəssisələrində təlim-tərbiyənin diaqnostikası ilə bağlı məsələlərin öyrənilməsinə, ümumiləşdirilməsinə, müzakirəsinə, qəbul olunmuş qərarların pedaqoji kollektivlərə çatdırılmasına verilir. Bu tipli məsələ, demək olar ki, Şuranın hər bir iclasının gündəliyinə çıxarılır. Təlim-tərbiyə prosesinin vəziyyəti ilə bağlı bütün məsələlərin yoxlanılması yüksək ixtisaslı mütəxəssislərdən ibarət komissiyalar tərəfindən həyata keçirilir.

Ümumrayon miqyaslı və müəssisədaxili tərbiyə tədbirlərinin leytmotivini ümumilli liderimiz Heydər Əliyev irsinin öyrənilməsi təşkil edir. Hər bir məktəbdə rayon təhsil şöbəsində təhsil işçiləri üçün Heydər Əliyev məktəbi yaradılmışdır. Hər dərs ilində xüsusi əsasnamə üzrə şagirdlər arasında Heydər Əliyev irsinə həsr olunmuş inşa müsabiqəsi təşkil edilir.

Məktəblərin nomenklatur siyahıya uyğun vaxtlı-vaxtında məktəb sənədləri, dərsliklər, dərs ləvazimatları, inventar ilə ödənilməsi istiqamətində də idarəetmə fəaliyyətimizi məqsədyönlü layihələşdirir. Məktəbdaxili iş rejimi, nəzarət qrafiki peşəkarlıq səviyyəsində işlənib hazırlanır, tətbiq edilir.

Təhsil Nazirliyinin normativ sənədlərində fiksasiya olunmuş metodoloji, texnoloji, diaqnostik idarəetmə mexanizmləri tam məzmunda istifadə olunması idarəetmə fəaliyyətimizin əsas qayəsidir. Abşeron Rayon Təhsil Şöbəsi bu yolla ümumtəhsil sistemində perspektiv və aktual idarəetmə fəaliyyətimizi müasir tələblərə uyğun demokratikləşdirir, humanistləşdirir və profesionallaşdıra bilir.





## Akademik Mehdi Mehdizadə irsindən pedaqoji istifadə haqqında

**Ramiz Əliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

XX əsr Azərbaycan və pedaqoji fikrinin görkəmli nümayəndələri sırasında Mehdi Mehdizadənin elmi-pedaqoji fəaliyyəti pedaqogika elminin qiymətli səhifələrini təşkil edir.

Akademik M.Mehdizadənin zəngin elmi-pedaqoji irsinin müəyyən hissəsi tərbiyə məsələlərinə həsr edilmişdir. Onun irəli sürdüyü nəzəri fikirlər və ümumiləşdirdiyi qabaqcıl məktəb təcrübəsi bu gün də öz aktuallığını saxlamaqdadır. Hazırda ölkəmizdə həyata keçirilən təhsil islahatının tələbləri baxımından onlardan istifadə etməklə milli-mənəvi tərbiyə sahəsində işlərimizi xeyli təkmilləşdirə bilərik.

M.Mehdizadənin tərbiyə məsələlərinə aid fikirlərini belə qruplaşdırmaq olar: 1. "Pedaqogika" dərsliklərində verilən məlumatlar: 2. İnsanın tərbiyəsi və inkişafına aid tarixi-pedaqoji aspektdə şərhlər: 3. Məktəblərdə estetik, fiziki, mənəvi və s. tərbiyə ilə əlaqədar görülmüş işlər və bu sahədə səmərəli təcrübənin ümumiləşdirilməsi: 4. Təlim prosesində tərbiyəedicilik nəticələrinin izahı: 5. Kompleks tərbiyəvi təsirlər nəticəsində şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması: 6. Əmək təlimi və tərbiyəsi probleminin tarixi inkişaf yolunun şərhi, ictimai-faydalı və məhsuldar əməyi, istehsalat əməyini əhatə edən əmək tərbiyəsi məsələləri və s.

M.Mehdizadə, S.Xəlilov və D.Mustafayev ilə birlikdə hələ 1941-1942-ci illərdə nəşr etdirdikləri "Pedaqogika" tədris vəsaitində tərbiyə problemini qoymuş, vəsaitin I hissəsində məktəbəqədər və məktəb yaşlı uşaqların tərbiyəsinin xüsusiyyətlərini, II hissəsində isə estetik və fiziki tərbiyənin məzmunu və metodlarını izah etmişdir. 1958-1959-cu illərdə nəşr olunan "Pedaqogika" kitabında isə tərbiyə nəzəriyyəsi daha geniş əks olunmuşdur.

Qeyd etməliyik ki, XIX əsr və XX əsrin əvvəllərində Avropada,o cümlədən Rusiyada pedaqogika elmi təlim-tərbiyə təcrübəsinin ümumiləşdirilməsində yaranan bir elm kimi başa düşülürdü. Hətta L.N.Tolstoy pedaqoji təcrübələrin öyrənilib, ümumiləşdirilməsi ilə pedaqogika elminin yarandığını qeyd et-

mişdi. M.Mehdizadə görünür,bu tarixi mövqe ilə razılaşaraq hələ 1941-ci ildə nəşr etdikləri vəsaitdə pedaqogikanı insanların tərbiyə praktikasında doğan və böyüməkdə olan nəslin tərbiyəsində bəhs edən elm kimi səciyyələndirmişdir. "Pedaqogika tərbiyənin həm bilavasitə olan təcrübəsini, həm də ədəbiyyatda və başqa mənbələrdə əks edilmiş təcrübələrini öyrənir, müəyyən cəmiyyət üzvü olan insanın tərbiyəsi qanunlarını, onun başqa hadisələrlə olan zəruri əlaqələrini aydınlaşdırır. Tərbiyəçi ilə tərbiyə edilənin arasındakı qarşılıqlı münasibətini göstərir".

30-40-cı illərdə tərbiyənin ümumi inkişafı, əhəmiyyəti, və s. haqqında ətraflı məlumat verildiyi halda, hələ sovet pedaqoji mövqeyi baxımından tərbiyənin prinsipləri məsələsi durulmamışdı. Daha çox metodik tələblərə yer verilirdi. M.Mehdizadə də öz həmmüəllif həmkarları ilə birlikdə 1941-ci ildə əxlaq tərbiyəsində ümumi metodik tələblərin nəzərə alınmasını irəli sürürdü: 1) tərbiyə və təlimin vəhdəti; 2) pedaqoji təsirlərin vəhdəti; 3) ardıcıllıq; 4) şagirdlərə diqqətlə və fərdi yanaşma.

M.Mehdizadənin müəllif kimi iştirak etdiyi 1958-ci ildə nəşr olunmuş "Pedaqogika"tədris vəsaitində artıq əxlaq tərbiyəsinin prinsiplərindən bəhs olunur və müəyyən təsnifat verilir. Amma bu mövzudan bəhs edən fəslin müəllifi M.Muradxanov olmuşdur. Bütün sonrakı müştərək müəllifin pedaqogika dərsliklərində tərbiyə nəzəriyyəsi hissəsi M.Muradxanov tərəfindən qələmə alınmışdır.

40-60-cı illərdə tərbiyə, təhsil və təlimin tarixi inkişafı tərbiyənin rolu, fiziki tərbiyə, əmək tərbiyəsi haqqında məqalələrində tərbiyə nəzəriyyəsi məsələlərinə yer vermiş sovet pedaqogikasında irəli sürülən tələbləri müdafiə etmiş, təbliğ etmişdir. 70-ci illərdə təlim-tərbiyə vəhdətindən çıxış edərək, bütün bu işlərini insanın-şagirdin fəal həyat mövqeyinin formalaşdırılması probleminin həlli ilə nəticələndirmiş və orijinal fikirlər söyləmişdir.

Hər şeydən əvvəl məktəbdə estetik tərbiyənin geniş məfhum olmaq etibarilə birinci növbədə həm həyatdakı, həm də incəsənət əsərlərindəki gözəlliyi onun bütün rəngarəng təzahürlərində məqsədə yönəldilmiş halda duymaq və düzgün qavramaq, sevmək və qiymətləndirməyi bacarmaq qabiliyyətini tərbiyə etməkdir. Bundan əlavə o, həyat və əməyin bütün sahələrinə özünün gözəllik ünsürlərini daxil etmək,



həyatda və incəsənətdə eybəcərliyə qarşı mübarizə aparmaq səyi və bacarığı tərbiyə etməyi nəzərdə tutur.

Müəllif bu nəticəyə gəlmişdir ki, estetik tərbiyə obyektiv varlığı incəsənət vasitəsilə başa düşməyə kömək edir. Aqillər çox gözəl demiş və göstərmişdir ki, dünyanı dərk etməyin iki yolu vardır: elmi dərketmə və incəsənət vasitəsilə dərketmə.

M.Mehdizadə haqlı olaraq yazırdı ki, estetik tərbiyə bədii ədəbiyyatın tədrisindən başlayır. Çünki, əsas təlim-tərbiyə məsələləri ilə yanaşı olaraq şagirdlərin estetik tərbiyəsinə kömək edən ədəbiyyat fənni bütün məktəblərdə, bu və ya digər dərəcədə, birinci sinifdən başlayaraq axırıncı sinfə qədər tədris edilir. Bədii ədəbiyyatın tədrisində estetik tərbiyənin effektli olması üçün proqram və dərsliklərin yüksək keyfiyyətlə hazırlanması əhəmiyyətini sübut etməyə ehtiyac yoxdur.

Ümumiyyətlə, estetik tərbiyədə bədii ədəbiyyatdan material seçilməsi, onu öyrənməyə necə yer verilməsi, materialın şagirdlərə hansı üsulla çatdırılması, fənn üzrə sinifdənxaric işin təşkili böyük əhəmiyyətə malikdir.

Həm orta, həm yuxarı siniflərdə ədəbiyyatın öyrənilməsində əsas məsələlərdən biri şagirdlərə düşünməyi və duymağı öyrətmək olduğundan, hər sinifdə onlara müəyyən estetik dəyərə malik ədəbi material təqdim edilmişdir.

Müəllifin fikirincə şagirdlərin estetik tərbiyəsində musiqi və nəğmə insanda incə, gözəl xeyirxah hisslər, nəcib arzular doğurur.

Estetik tərbiyənin çox mühüm vasitələrindən biri də rəsm tədrisidir. Tərbiyə işində onun oynadığı rol maarif işçilərinə aydındır. Aqillər demişkən, "Rəssamlıq-gözlə görünən poeziyadır".

O, sübut edirdi ki, şagirdlərin estetik tərbiyəsində sinifdənxaric və məktəbdənkənar işlərin rolu çox böyükdür.

Orta məktəb şagirdlərinin əmək tərbiyəsindən bəhs edən M.Mehdizadə qeyd edirdi ki, əmək hər bir vətəndaşın müqəddəs borcudur, şərəfli vəzifəsidir. Bunun üçün məktəbin aşağı siniflərindən etibarən şagirdləri əməyə və əmək adamlarına hörmət etməyə, əməkdən qaçmaq deyil, əməyi sevməyə, var qüvvələrilə cəmiyyət xeyrinə işləməyə alışdırmaq lazımdır.

Şagirdləri elə yetişdirmək lazımdır ki, onlar fəaliyyətsizlikdən can sıxıntısı çəksinlər, əməkdən onun müsbət nəticələrindən zövq alsınlar, əməyin hər iki növünü, həm zehni əməyi, həm də fiziki əməyi sevsinlər, buna adət edib alışsınlar.

Əmək tərbiyəsinin əməli vəzifələrindən biri də gələcək fəaliyyətləri üçün öz qüvvə və qabiliyyətlərinə müvafiq olan peşə seçməkdə şagirdlərə əlverişli imkan yaratmaqdan ibarətdir.

Əmək tərbiyəsinin mərkəzi vəzifəsi-şagirdləri xüsusən fiziki əmək vərdişlərilə silahlandırmaqdan, onları müəyyən əmək sahəsində işləmək üçün hazırlamağa xidmət etməkdən ibarətdir.

Əmək tərbiyəsini peşə təhsili ilə eyniləşdirmək olmaz, yazan pedaqoq qeyd edir ki, əmək tərbiyəsi peşə təhsili üçün əlverişli zəmin yaradır, peşə təhsilindən səmərəli istifadə etməyə xidmət edir.

Əmək tərbiyəsinin mühüm bir vəzifəsi də şagirdlərə əmək mədəniyyəti aşılamaqdır.

Əmək mədəniyyətini aşılamaq dedikdə, şagirdlərdə iş yerini səliqəli saxlamaq adəti əmələ gətirmək, işə cəld bir surətdə başlaya bilmək, işi səmərəli bir surətdə planlaşdıra bilmək, vaxtı düzgün qiymətləndirə bilmək bacarıqları yetişdirmək nəzərdə tutulur. Şagird fiziki və zehni əməyin səmərəli tərz və üsullarını tətbiq edə bilməyə, əməkdə istirahəti növbələşdirə bilməyə, işin nəticələrinə düzgün qiymət verə bilməyə alışmalıdır. Əmək mədəniyyətinə bir sıra təşkilatı vərdişlər də daxildir: o cümlədən kollektivdə çalışmaq, yoldaşa kömək edə bilmək, iş yoldaşları arasında işi düzgün bölüşdürə bilmək, kollektiv əməkdə yarış və yardım təşkil edə bilmək və s.

Nəhayət, əmək tərbiyəsinin mühüm bir vəzifəsi də şagirdlərin zehni və fiziki qabiliyyətlərinin ahəngdar inkişaf etməsinə xidmət göstərməkdən ibarətdir.

Müəllif qeyd edir ki, əmək tərbiyəsi şagirdlərin bütün təlim və əmək prosesində yerinə yetirilir. Şagirdlər əsasən təlimdə, ictimai faydalı işdə, özünə xidmətlə, məişət əməyi və oyunda fəaliyyət göstərirlər. Bu fəaliyyət növlərinin hər birinin əmək tərbiyəsində rolu vardır.

O, əmək tərbiyəsinin prinsiplərini aşağıdakı kimi təsnif edir: şagirdlərin sərf etdikləri hər növ əməyin, göstərdikləri hər növ fəaliyyətin təlim-tərbiyə məqsədlərinə, o cümlədən əmək tərbiyəsi məqsədinə tabe edilməsi, şagirdlərin sərf etdikləri əməyin ictimai əhəmiyyətini dərk etmələri, şagird əməyinin onların qüvvə və imkanlarına uyğun olması, ictimai-faydalı işlərin və əmək tapşırıqlarının sistematikliyini və planlılığını təmin etmək, şagirdlərin ictimai-məhsuldar əməyinin kollektiv səciyyə daşıması.



M.Mehdizadə əmək tərbiyəsinin məlum əsas vasitələri və yollarını geniş qeyd edərək, təlim işlərini, sinifdən və məktəbdənkənar ictimai-faydalı əmək, ictimai işlər, ailədə məişət əməyi işlərini ətraflı təhlil edir.

M.Mehdizadə istehsalat təlimi məsələlərindən, istehsalat təliminin təşkilat formaları və üsulları, istehsalat təliminə verilən əsas tələblərdən bəhs edərkən də bütün bunları əmək tərbiyəsinə xidmət edən vasitə kimi nəzərə almış və şərhini vermişdir.

İrəlidə qeyd etdiyimiz kimi, M.Mehdizadənin tədqiqlərində tərbiyə probleminin əsas sahələrindən hesab edilən məktəblilərin fəal həyat mövqeyi məsələsi 70-ci illərdə ciddi araşdırmalar nəticəsində şərhini tapan aktual problemə çevrilmişdir.

Alim qəti müəyyənləşdirmişdir ki məktəblilərin fəal həyat mövqeyinin formalaşdırılması mənəvi tərbiyənin vəzifəsidir. O, eyni zamanda yazır ki, şəxsiyyətin əmək fəallığı mövqeyi təmin edilmədən onun həyat mövqeyinin formalaşdırılmasına nail olmaq mümkün deyil. Mahiyyətcə individin (fərdin-R.Ə.) əmək fəallığı mövqeyi, onun bütün fəal həyat mövqeyini təşkil edir.

Məktəblilərin əmək fəallığı mövqeyinin formalaşdırılmasının yolları və vasitələrindən bəhs edən pedaqoq, əmək təliminin təşkili və həyata keçirilməsini bu sahədə əsas hesab edir. Əmək təlimi və tərbiyəsinin praktikada bir-birindən ayrılmazlığını nəzərə alan alim bu problemə ayrı-ayrılıqda, yəni sırf təlim nəzəriyyəsi baxımından, və ya sırf tərbiyə nəzəriyyəsi baxımından yanaşmır. Onları vəhdətdə götürür və əlbəttə, əmək tərbiyəsinin məzmununa daxil edir. Onu da qeyd etməliyik ki, alim əmək fəallığı mövqeyinin formalaşdırılmasında əsas götürdüyü əmək təlimi və tərbiyəsinin funksiyasını əməyə, sosialist mülkiyyətinə, kommunist münasibəti tərbiyə etməkdə, kollektivlə əməyə maraq və məhəbbətdə, işi icra edən üçün mühüm əhəmiyyətə malik olan əmək mədəniyyəti və möhkəm şüurlu intizamda, əməyin səmərəsini yüksəltməyə qayğı və s. formalaşdırmaqda görürdü.

Artıq tarixə çevrilən bu təqdimatlar yeni pedaqoji təfəkkürdə arxaikləşmiş görünür və bu həqiqətən belədir. Lakin alimin fəal həyat mövqeyinin formalaşdırılmasında əmək tərbiyəsi funksiyasının mühüm rol oynadığı danılmazdır.

M.Mehdizadə şəxsiyyətin fəal həyat mövqeyinin təzahür formalarından biri kimi ictimai-siyasi fəallıq mövqeyini qəbul edir. Təsadüfi deyildir ki, M.Mehdizadə sosializm şəraitində

şəxsiyyətin əsas əməyinin onun ictimai-siyasi əməyi ilə əlaqələndirilməsini qanunauyğun hadisə hesab edir və öz fikirini əsaslandıraraq yazırdı ki, əgər şəxsiyyətin fəal mövqeyi bütünlükdə kollektivdə, onun vasitəsi və təsiri altında formalaşarsa, ictimai-siyasi fəallığın formalaşdırılması burada istisna təşkil edə bilməz.

Bu baxımdan ümumməktəb, komsomol, pioner, özünüidarə kollektivlərinin rolunu şərh edərək, sinif kollektivinin mahiyyətini daha geniş açan alim yazır ki, sinif keçmişdəki məktəblərdə də, həm də əsrlər boyu olmuşdur. O vaxtlar da sinif, yaş və hazırlıq səviyyəsi nəzərə alınmaqla şagirdlərin müəyyən "biliyi" kimi təsəvvür olunurdu. Lakin bizim indi təsəvvür etdiyimiz kollektiv deyildi. Həmin siniflərin şagirdləri içərisində bir-birinə dost olan uşaqların olmasına baxmayaraq, sinif öz sosial tərkibinə, sosial formasiyanın təsiri altında xüsusi mülkiyyətçilik perspektivinə görə bir-birilərindən fərqlənən uşaqlardan ibarət idi. Onların bir qismi varlıların, mülkədarların, digər qismi tacirlərin, sənaye sahiblərinin, üçüncü qismi ruhanilərin, idarə qulluqçularının və s. uşaqlar idi. Burjua aləmində indi də siniflərin tərkibi belədir. Belə bir kəskin fərqin hökm sürdüyü sinifdə sosial yaxınlaşma, birləşmək üçün vahid sosial meyl ola bilməzdi və yox idi. Təəssüf ki, hazırda Azərbaycanda yaranmış sağlam, möhkəm, sosial ədalət bazalı kollektivçilik ənənələri öz yerini həmin "burjua" aləminin doğurduğu "kollektiv" formasına verməkdədir. Çünki yeni yaranan ictimai quruluş, cəmiyyətdə azad bazar iqtisadiyyatı münasibətləri özünəməxsus norma və qayda-qanunlarla yox, xaos və qarma-qarışıqlıq şəraitində bərqərar olunduğundan sinfi-silki, mülki fərqlər yüksək təzadlı səviyyədə meydana çıxır, qazanılmış sosial ədalət və bərabərlik prinsiplərini məhv edir. Digər tərəfdən, indiki şəraitdə ictimai-siyasi fəallıq mövqeyinin təkpartiyalılıq şəraitində deyil, çoxpartiyalılıq şəraitində ziyanlı mövqeyə çevrilməsi M.Mehdizadənin bu istiqamətdəki sosial-pedaqoji baxışlarının sosial-siyasi iqtisadi bazanın dəyişməsi ilə əlaqədar olaraq öz dövrünə görə aktual olduğu qeyd edilməlidir.

Bizim fikirimizcə, şagirdlərin və ya şəxsiyyətin fəal həyat mövqeyi probleminə yeni prizmadan baxmağa ehtiyac vardır. Xüsusilə, ictimai-siyasi fəallıq mövqeyi əvəzinə biz şəxsin fərdi-ictimai fəallıq mövqeyini formalaşdırmağı aktual hesab edirik.



M.Mehdizadənin şəxsiyyətin fəal həyat mövqeyinin formalaşdırılması probleminin həllində də tərbiyə və təlim prosesindən vəhdətdə istifadə ideyası bir daha özünü göstərir. Mənəvi tərbiyyənin vəzifəsi saydığı fəal həyat mövqeyi formalaşdırmanın idrak fəallığı olmadan mümkünsüzlüyünü irəli sürən alim məhz ilk növbədə əqli-idraki imkanlardan istifadə edilməsini məsləhət görür. Ona görə də idrak marağının yüksəldilməsi, təlimdə "əyləncəli ünsürlərin tətbiq edilməsi" və digər didaktik şərtlər irəli sürür. Təbiidir ki, idrak fəallığı olmadan hər hansı məhsuldar sahədə məhsuldar fəallıq mümkün deyildir. *

M.Mehdizadə fəal həyat mövqeyindən danışarkən onu əhalinin ayrı-ayrı yaş qruplarına görə, yəni kiçik və yuxarı yaşlı məktəblilərə, yaxud yetkin yaşlı əməkçilərə görə fərqləndirməyi vacib sayır. Təbii ki, bu prosesə dinamik yanaşdığına görə onun kiçik məktəb yaşı dövründən başlayaraq insanlarda mənəvi tərbiyə vəzifəsi kimi yerinə yetirməyi lazım bilir.

Yekun olaraq qeyd etməliyik ki, Mehdi Mehdizadə tərbiyəni pedaqogika elmində əsas anlayış (kateqoriya) hesab edərək, onun mahiyyətinin elmi-nəzəri şərhini vermiş, tərkib hissələrini aşkarlamış - izah etmiş, şəxsiyyətin formalaşmasında əsas amil sayaraq, təlimdən vasitə kimi istifadə edərək ondan daha məqsədyönlü və səmərəli istifadəni vacib saymışdır. O, əqli, fiziki, estetik, əmək tərbiyəsi və politexnik təhsil haqqında dövründə mövcud olan baxışlara sadiq olmuş, əsasən tədqiqi və təbliği fəaliyyət göstərmiş, iş təcrübəsinin ümumiləşdirilməsinə əsərlərində geniş yer vermişdir. Məktəblinin fəal həyat mövqeyinin formalaşdırılması pedaqoji problem kimi Azərbaycan ədəbiyyatında ilk dəfə Mehdi Mehdizadə tərəfindən qoyulmuşdur. Bu problemi mənəvi tərbiyənin vəzifəsi sırasında götürsə də, onun həllinə əqli, iradi, ictimai-fəallıq, əmək fəallığı mövqeyində kompleks yanaşmışdır.

Təhsil islahatının və zamanın tələbləri baxımından tərbiyənin yeni məzmunun yaradılması, təkmilləşdirilməsi və yeniləşdirilməsi, demokratik və humanist prinsiplərin əsas götürüldüyü indiki vaxtda M.Mehdizadə irsindən yaradıcılıqla istifadə ümumi işimizə yalnız xeyir verə bilər.

---

* 5 «Azərbaycan məktəbi» № 1

müharibə elanına bəhanə üçün ilk öncə onun çox sevdiyi atını istədi. ...Mete vətəndaşlarını müharibənin müsibətlərinə məruz qoymamaq üçün atı tatar xalqına göndərdi. Tatar xalqı müharibəyə bəhanə arayırdı. Bu səfər də Metenin çox sevdiyi xanımını istədi. Bütün bəylər qurultayda müharibə elan etməyi irəli sürdükləri halda, Mete:

«Mən vətənimi öz eşqimin uğrunda tapdalada bilmərəm», - deyərək sevgilisini düşmənə vermək kimi böyük bir fədakarlığı qəbul etdi. Belə olduqda, tatar xaqanı Hun ölkəsindən heç bir məhsul tarlası, meşəsi, yeraltı sərvəti, əhalisi olmayan bir bölgə – ərazi parçasını istədi. Qurultay bu faydasız torpağın verilməsində heç bir zərər olmadığını söyləyərkən, Mete:

«Vətən bizim mülkümüz deyildir, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu mübarək torpaq üzərində haqqları vardır. Vətəndən – istər, bir qarış qədər olsun – yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də müharibə edəcəyik. Bax, indi mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır.». - deyərək tatarların üzərinə yeridi. (Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991, səh.114).

Digər bir misal:

«Böyük millətlərdən hər biri mədəniyyətin xüsusi bir sahəsində birinciliyə çatmışlar. Əski yunanlar estetikada, romalılar hüquqda, israillilər ilə ərəblər dində, fransızlar ədəbiyyatda, anqlosakslar iqtisadda, almanlar musiqi ilə metafizikada (fəlsəfədə), türklər əxlaqda birinciliyi qazanmışlar» (Yenə orada, səh.113).

İkinci qrup mənəvi dəyərlər aborigenlərlə gəlmə soyların mənəvi dəyərlərinin çulğalaşması (konsolidasiyası) zəminində formalaşan dəyərlərdir. Azərbaycan xalqı ərəblərdən islam mədəniyyətini, sasani və səlcuqlardan dövlətçilik dəyərlərini əxz etmək əsasında öz mənəvi dəyərlərini daha zənginləşdirmişdir. Milli-mənəvi dəyərlərimizin formalaşması və inkişafında islam mədəniyyətindən əxz edilmiş dəyərlərin müstəsna əhəmiyyəti olmuşdur. Müqəddəs kitabımız «Qurani Kərimin» bu sahədə xüsusi yeri vardır. Yüksək etiqadlılıq, hümanizm və ədalət rəmzi olan bu dəyərlər Azərbaycan xalqının mənəviyyatının ana xəttini təşkil edir. Sovet rejimi dövründə ateist təbliğatının, təqib və yasaqların tüğyan etməsinə baxmayaraq xalqımız həmin mənəvi dəyərləri qəlbində, mənəviyyatında və məişətində qoruyub saxlamış, onların müqəddəsliyini, ülviliyini daim yaşatmışdır.

Azərbaycan xalqının dövlətçilik mənəvi dəyərlərinin inkişafı və zənginləşməsində səlcuq türklərinin idarəçilik ənə-



nələrinin mühüm rolu olmuşdur. Burada səlcuqlar sultanları Alp Arslan (1063-1072) və Məlik Şahın (1072-1092) vəziri olmuş Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk tərəfindən yazılmış «Siyasətnamə» kitabını qeyd etmək çox vacibdir. (Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk,«Siyasətnamə», 2-ci nəşri, Bakı, Elm, 1989, səh.212.).

Göstərildiyi kimi, Azərbaycan xalqına məxsus elə mənəvi dəyərlər vardır ki, onlar həm də ümumbəşəri xarakter daşıyırlar. Onların ancaq bir millətə, o cümlədən təkcə Azərbaycan xalqına məxsus olduğunu elan etmək məqbul olmazdı.

Əfsuslar ki, sovet rejimi dövründə ayrı-ayrı xalqlara məxsus milli-mənəvi dəyərlər «kommunizm qurucusunun əxlaq kodeksi» ilə əvəz edilmişdi, «Kommunizm insana sədaqət, sosialist Vətəninə, sosializm ölkələrinə məhəbbət, kollektivçilik, hər kəs hamı üçün, hamı hər kəs üçün, bütün ölkələrin zəhmətkeşləri ilə həmrəylik» kimi şüarlar altında milli və fərdi mənəviyyata güclü zərbə vurulmuşdu. SSRİ-nin süqutu və sosializmin iflası ilə «kommunizim qurucusunun əxlaq kodeksi» də dəfn olundu. Müstəqil milli inkişaf hər bir xalqın öz milli-mənəvi dəyərlərinə qayıtmasına və onu inkişaf etdirməsinə imkan verdi. Hər bir millətin, xalqın milli yaddaşı bərpa olundu. Hər bir millət, xalq milli və bəşəri mənəvi dəyərlərə malik nəsillər tərbiyə etməyə başladı. Bunun zəminində Azərbaycanda böyüməkdə olan nəslin «milli-mənəvi dəyərlər əsasında tərbiyəsi» deyimi nəzəri-praktiki problem kimi qarşıya qoyuldu. O, Azərbaycan gənclərinin 1996-cı ilin əvvəllərində toplanmış birinci Respublika forumunda vacib tərbiyəvi vəzifə kimi vurğulandı.

Deməli, təhlil göstərir ki, milli-mənəvi dəyərlərin formalaşmasının özünəməxsus qanunauyğunluqları mövcuddur. Fikrimizcə, onlar təqribən aşağıdakılardan ibarətdir:

- Milli-mənəvi dəyərlərin formalaşmasının genoloji amillərdən asılılığı;
- Milli-mənəvi dəyərlərin formalaşmasında müxtəlif etnoloji dəyərlərin konselidasiyası və assimilyasiya prosesinin mühüm rol oynaması;
- Milli-mənəvi dəyərlərin formalaşmasında milliliyin və ümumbəşəriliyin vəhdətliyi;
- Coğrafi mühit və şəraitin milli-mənəvi dəyərlərin formalaşmasına təsiri;
- Milli-mənəvi dəyərlərin sonrakı nəsillərə ötürülməsinin zəruriliyi və s.